# Xronologiya

| | |
|---|---|
| **1923, 28 aprel** | Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Şahtaxtı kəndində Əziz Əliyev və Leyla Əliyevanın ailəsində anadan olmuşdur. |
| **1932-1942** | Bakıda orta məktəbdə təhsil almışdır. |
| **1942** | Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olmuşdur. |
| **1947** | Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsini əla qiymətlərlə bitirmişdir. |
| **1948-1949** | Ümumittifaq Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda ikiillik ixtisaslaşdırma kursunda həkim-oftalmoloq ixtisasına yiyələnmişdir. |
| **1949** | Azərbaycan Elmi Tədqiqat Göz Xəstəlikləri İnstitutunun ordinatoru olmuşdur. |
| **1950** | Aspiranturaya daxil olmuşdur. Tədqiqat işi traxomanın müalicəsi ilə bağlı məsələlərə - traxomanın müalicəsində və onun ağırlaşdığı hallarda daha təsirli vasitələrin öyrənilməsinə, o dövr üçün yeni olan antibiotikdən – sintomisindən istifadə olunmasına həsr edilmişdir. |
| **1953** | Aspiranturanı bitirmişdir. |
| **1953-1957** | Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda elmi işçi işləmişdir. |
| **1954, 18 oktyabr** | Heydər Əliyevlə ailə həyatı qurmuşdur. |
| **1955, 12 oktyabr** | Heydər və Zərifə Əliyevlərin qızı Sevil Əliyeva dünyaya gəlmişdir. |
| **1960** | “Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi” mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. |
| **1960-1967** | Oftalmologiya İnstitutunda böyük elmi işçi vəzifəsində çalışmışdır. |
| **1961, 24 dekabr** | Heydər və Zərifə Əliyevlərin oğlu İlham Əliyev dünyaya gəlmişdir. |
| **1962, 27 iyul** | Atası Əziz Əliyev vəfat etmişdir. |
| **1963** | SSRİ Ali Attestasiya Komissiyası ona oftalmologiya ixtisası üzrə böyük elmi işçi adı vermişdir. |
| **1967** | Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Göz xəstəlikləri kafedrasına dosent vəzifəsinə dəvət olunmuşdur. |

| | |
|---|---|
| **1969** | Ə. Əliyev adına Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunda Göz xəstəlikləri kafedrasının görmə orqanının peşə patologiyası laboratoriyasının müdiri vəzifəsində çalışmışdır. |
| **1977** | H. Helmqolts adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda "Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanının vəziyyəti" mövzusunda dissertasiya müdafiə etmişdir.<br><br>Tibb elmləri doktoru elmi dərəcəsinə layiq görülmüşdür.<br><br>Z. Ə. Əliyevanın təklifi və rəhbərliyi ilə Bakı şəhərində Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti İdarə Heyətinin plenumu keçirilmişdir. |
| **1978** | Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun oftalmologiya kafedrasının müdiri olmuşdur. |
| **1979** | Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun oftalmologiya kafedrasının professoru seçilmişdir.<br><br>Oftalmoloqların Ümumittifaq elmi Cəmiyyəti İdarə Heyəti və Sovet sülhü müdafiə komitəsinin üzvü seçilmişdir. |
| **1980** | Azərbaycan SSR-in "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür. |
| **1981** | Oftalmologiyanın inkişafına verdiyi böyük töhfəyə – görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi tədqiqatlara görə oftalmologiya aləmində ən yüksək mükafata – SSRİ Tibb Elmləri Akademiyasının akademik M. İ. Averbax adına mükafatına layiq görülmüşdür. |
| **1982-1985** | Əziz Əliyev adına Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunda oftalmologiya kafedrasının müdiri vəzifələrində çalışmışdır. |
| **1982** | "Əmək veteranı" medalı ilə təltif olunmuşdur.<br><br>Ümumittifaq "Vestnık oftalmoloqii" jurnalının redaksiya heyətinin, Ümumittifaq Oftalmoloqlar Elmi Cəmiyyətinin, Ümumittifaq Oftalmoloqlar Elmi Cəmiyyəti Rəyasət heyətinin, Əziz Əliyev adına Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Geniş Elmi Şurasının və baş cərrahlar Elmi Şurasının üzvü olmuşdur.<br><br>Sovet Sülhü Müdafiə Komitəsinin sədrinin müavini kimi fəaliyyət göstərmişdir<br><br>Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir. |
| **1983** | Azərbaycan Respublikası Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir. |
| **1985, 15 aprel** | Moskva şəhərində vəfat etmiş, Novo-Deviçye qəbiristanlığında dəfn edilmişdir. |

| | |
|---|---|
| **1994** | Cənazəsi Moskvadan Bakıya gətirilərək Fəxri Xiyabanda, atası Əziz Əliyevin və qardaşı Tamerlan Əliyevin məzarlarının yanında dəfn edilmişdir. |